# ETİK DAVRANIŞ KODEKSİ

ALSTOM

• mobility by nature •

«Korporativ və işgüzar etika qaydalarına əməl etməkdən söhbət getdikdə hamımız məsuliyyət daşıyırıq»



# ŞİRKƏTİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORUNUN MÜRACİƏTİ

Şirkətimiz ekoloji cəhətdən dayanıqlı və intellektual nəqliyyatın təmin edilməsinə yönəlmiş innovativ həllərin dünyada aparıcı istehsalçısı olmağa can atır. Bu hədəfin əsasında şirkətimizin ən yüksək etik standartlara və bütün müvafiq qanunlara, daxili qayda və prosedurlara əməl etməsi durur. Bu yanaşma təkcə düzgün qərar deyil, həmçinin uğurlu və dayanıqlı sahibkarlığın və inkişafın açarıdır və onun əsas aspekti Çeviklik, İnklüzivlik və Məsuliyyət kimi əsas dəyərlərimizdir.

Hazırki Etik Davranış Kodeksi bütün Alstom əməkdaşları üçün rəhbər olmalıdır. Sizi Etik Davranış Kodeksimizi oxumağa və onun prinsiplərini qəbul etməyə, onu yarana biləcək istənilən məsələdə rəhbər olaraq istifadə etməkdə tərəddüd etməməyə çağırıram. Yoldaşlarımız üçün nümunə olmalı və etik normalara əməl etməyə yönəlmiş kollektiv tədbirlərdə iştirak etmək imkanları (məsələn, Etik və hüquqi normalara əməl etmə məsələləri üzrə Nümayəndə olmaq) axtarmalıyıq.

Etik Davranış Kodeksimiz biz – Alstom komandası olmadan effektiv deyil. Fasiləsiz təkmilləşmə və səhvlərin düzəldilməsi normalara və Kodeksin müddəalarına əməl etməyin ayrılmaz hissəsidir.

Suallarınız olduqda yaxud qayda pozuntusu ilə üzləşdikdə Sizi daxili xəbərdarlıq sistemimiz olan Alstom Alert Procedure-dan istifadə etməyə çağırıram. Kodeksin qaydalarını pozanlara qarşı müvafiq inzibati tədbirlər görüləcək. Həmçinin Sizi əmin edirəm ki, bu cür xəbərdarlıqları edən şəxslər heç bir halda təqib edilməyəcəklər.

Dəyərlərimiz və etik davranış qaydalarımız Alstom şirkətinin qürurunun və birliyinin mənbəyidir. Onlar ən dəyərli xüsusiyyətlərimizdir və onlara dəyər mənbəyi kimi yanaşıb rəhbər tutacağıq.

Şirkətimizin inkişafının uğurlu aspekti Etik Davranış Kodeksinin Alstom əməkdaşları arasında, eləcə də bütün dünyada gündəlik tətbiq edilməsi və yayılmasıdır. Korporativ və işgüzar etika qaydalarından söhbət getdikdə hamımız məsuliyyət daşıyırıq.

**Henri Poupart-Lafarge**
Sədr və Baş icraçı direktor

# DƏYƏRLƏRİMİZ

Şirkət üç mühüm dəyəri – Çeviklik, İnklüzivlik və Məsuliyyəti rəhbər tutur.
Bu dəyərlər Alstom əməkdaşlarının iş həyatında hərəkətverici qüvvədir.

## — ÇEVİKLİK —

**Cəld hərəkət edirik, öncədən görürük, daima öyrənirik və uyğunlaşırıq**

- Dinamikanı saxlayaraq və qoyulmuş hədəfə nail olmağa yönələrək xarici dəyişikliklərə uyğunlaşırıq. Bilik əldə etmək, şəxsi potensialı möhkəmləndirmək və şirkətimizin rəqabət qabiliyyətini artırmaq məqsədilə maraqlı tərəflərlə effektiv razılaşma imkanlarından yararlanırıq.

## — İNKLÜZİVLİK —

**Fərqlilikləri qəbul edirik**

- Bütün fərqliliklərin qərəzsiz qarşılandığı işgüzar mühitdə və mədəniyyətdə inklüziv hərəkətlilik üzrə həllər hazırlayırıq. Hər kəsin şirkətin inkişafına töhfə vermək və şirkətdə uğur qazanmaq imkanı var.

## — MƏSULİYYƏT —

**Əməkdaşlarımıza, müştərilərimizə və cəmiyyətə qarşı məsuliyyətliyik**

- Öhdəliklərimizi yerinə yetiririk.
- Ədalətli davranırıq və davranışlarımıza, hərəkətlərimizə, eləcə də verdiyimiz qərarların nəticələrinə görə məsuliyyət daşıyırıq.
- Korporativ qaydalara və işgüzar etika və təhlükəsizlik qaydalarına əməl etməyə məsuliyyətlə yanaşırıq.

# MÜNDƏRİCAT


**ETİK DAVRANIŞ KODEKSİ NƏDİR? KODEKS KİMLƏRƏ TƏTBİQ EDİLİR?** 6

Əməkdaşların öhdəlikləri 7
Rəhbərlərin öhdəlikləri 7
Qərarvermə prosesində etik normalara əməl etmə 8
Əxlaqi-etik normalar proqramı 8
Resurslar 9
Qayda pozuntuları haqqında xəbərdarlıq 9

**FƏALİYYƏT GÖSTƏRMƏ METODLARIMIZ**

1 Qanunlar və digər normativ-hüquqi aktlara əməl etmə 11
2 Alstom şirkətinin bütün qayda və siyasətlərinə əməl etmə 11
3 Çirkli pulların yuyulmasına qarşı tədbirlər 11
4 Korrupsiya və rüşvətxorluğun qarşısının alınması 12
5 Rəqabət haqqında qanunvericiliyə əməl etmə 13
6 İxraca nəzarət və ticarətdə məhdudiyyətlər 14
7 Maraqların toqquşması 15
8 Hədiyyələr və Qonaqpərvərlik əlamətləri 16
9 Daxili nəzarət 17

**İŞGÜZAR PARTNYORLARIMIZLA ETİBARLI MÜNASİBƏTLƏRİN QURULMASI**

1 Sifarişçilər 19
2 Təchizatçılar və podratçılar 20
3 Ticarət partnyorları 21
4 Dövlət satınalmaları 21

**ALSTOM YÜKSƏK MÜLKİ MƏSULİYYƏTİ OLAN ŞİRKƏTDİR**

1 Ətraf mühitin mühafizəsi 23
2 İcmalarla münasibət 23
3 Siyasi partiyalara ianələr və siyasi fəaliyyət 24
4 Xeyriyyə məqsədli ianələr 24
5 Sponsorluq 24

**HÖRMƏT VƏ İNKLÜZİVLİK**

1 İnsan hüquqlarına hörmət 26
2 Əməkdaşlarla münasibət 26
3 Karyera idarəetməsi 26
4 Bərabər imkanlar, inklüzivlik, ayrı-seçkiliyin olmaması 27
5 Əməyin mühafizəsi və təhlükəsizlik texnikası 28
6 Əməkdaşların təhlükəsizliyi 29
7 Məlumatların məxfiliyi 29

**ŞİRKƏT ƏMLAKININ QORUNMASI**

1 Şirkətin İT resurslarından istifadə 31
2 Məxfi məlumatlar istifadə etməklə aparılan qanunsuz əməliyyatlar 32
3 Əqli mülkiyyət 33
4 Məxfi məlumatlardan istifadə etməklə aparılan qanunsuz əməliyyatlar 33
5 Məlumatların analitiklərə yaxud investorlara təqdim edilməsi 34
6 KİV ilə əlaqə 34
7 Sosial şəbəkələrdən istifadə 34

# ETİK DAVRANIŞ KODEKSİ NƏDİR?



**Alstom şirkəti bütün işgüzar fəaliyyətlərində etik və hüquqi normalara ciddi şəkildə əməl edir. Bu öhdəliyi yerinə yetirmək və nüfuzumuzu qorumaq məqsədilə Alstom işçilərinin qüvvədə olan bütün davranış standartlarını və normalarını tətbiq etmə kimi ümumi bir öhdəliyi var. Etik Davranış Kodeksi gündəlik fəaliyyətimizi yönləndirən prinsip və qaydaların göstərildiyi əsas vəsaitdir.**

Hazırki Kodeks Alstom şirkətinin dəyərləri, hüquqi normaları, müddəaları, davranış qaydaları və təlimatlarından ibarət olan yüksək səviyyəli sənəddir. Əsas sahələrdə etika qaydaları və normalarının tətbiq edildiyini nümayiş etmək üçün Kodeksdə praktiki nümunələr verilir. Kodeks bütün sualları əhatə etmir, əlavə məlumat əldə etmək zərurəti yarandıqda müvafiq resursu tapmaq üçün sizə yol göstərir və sizi yönləndirir.

## KODEKS KİMLƏRƏ TƏTBİQ EDİLİR?

- ALSTOM-UN BÜTÜN ƏMƏKDAŞLARI
- ALSTOM-UN İDARƏ ETDİYİ İSTƏNİLƏN QURUM
- DİGƏR QURUMLAR*

*Alstom tərəfindən idarə olunmayan digər qurumlardan bu Kodeksdə olan bütün hüquqi tələblərə və prinsiplərə əməl etmək gözlənilir. Həmin etik qaydalara və prinsiplərə əməl etməyən müəssisədə əlavə yoxlama aparılacaq və müvafiq düzəliş tədbirləri görüləcək.

# ƏMƏKDAŞLARIN ÖHDƏLİKLƏRİ



**Alstom şirkətinin hər bir əməkdaşı işgüzar etika və normalara əməl etmə çərçivəsində şəxsən nümunə olmalıdır. Qəbul edilmiş öhdəlikləri nəzərə alaraq əməkdaş:**

- Hazırki Etik Davranış Kodeksində olan məsələlər və müvafiq təlimatlar barədə ümumi təsəvvürə malik olmalıdır;
- Hazırki sənədin ən son versiyasını bilməli və işində tətbiq etməli olduğuna görə bütün yenilənmələrdən xəbərdar olmalıdır;
- Alstom-un işinə aid təlimatları və prosedurları aydın şəkildə anlamalı və yenilikləri müntəzəm olaraq yoxlamalıdır;
- Etik Davranış Kodeksi, Alstom şirkətinin əxlaqi-etik normaları yaxud Alstom Təlimatları ilə əlaqədar yaranan suallarla bağlı rəhbərinə yaxud başqa şəxsə, yəni Hüquq şöbəsinin, daxili nəzarət şöbəsinin, daxili audit şöbəsinin əməkdaşlarına, Etika və hüquqi norma məsələləri üzrə nümayəndələrə yaxud İR üzrə nümayəndələrə müraciət etməlidir;
- Pozuntu halı haqqında daxili xəbərdarlıq sistemi olan Alstom Alert Procedure daxil olmaqla, korporativ və işgüzar etika qaydalarına əməl etmə sahəsindəki bütün resurslarla tanış olmalıdır;
- Qanunsuz hərərəkət barədə dərhal məlumat verməlidir;

**Etik Davranış Kodeksinə əməl etməməyə görə təkcə sizə qarşı deyil, Alstom-a qarşı da sanksiyalar tətbiq edilə bilər.**

# RƏHBƏRLƏRİN ÖHDƏLİKLƏRİ



**Bütün rəhbərlər hüquqi normalar və işgüzar etikaya əməl etmə çərçivəsində yüksək davranış standartları müəyyən etməlidirlər. Əminik ki, Alstom şirkətinin rəhbərləri riskləri aşkarlayaraq və aradan qaldıraraq, lazım gəldikdə məsələni yüksək rəhbərliyə bildirməklə Əxlaqi-etik normalar Proqramının reallaşdırılmasında nümunə olacaqlar. Rəhbərin vəzifəsi aşağıdakılardır:**

- Kodeksin əhatə etdiyi mövzuları və əsas prinsipləri dərindən anlamaq;
- Kodeks, Alstom-un təlimatları və tətbiq edilən qanunları barədə məlumatları əməkdaşlarla və kənar üçüncü tərəflərlə paylaşmaq;
- Əməkdaşların Kodeks və Alstom-un müvafiq təlimatları barədə təlimlər keçməsini təmin etmək;
- Biznesin gedişatı zamanı yarana biləcək hüquqi riskləri müəyyən etmək və ünvanlamaq;
- Şirkət daxilindəki funksional riskə aid proseslər barədə məlumatları yaymaq, anlamaq və tətbiq etmək;
- Şöbə daxilindəki əməkdaşların pozuntu halı haqqında daxili xəbərdarlıq sistemi Alstom Alert Procedure-dan ölkədə tətbiq edilən qanun və normativ aktlara uyğun olaraq istifadə etməsini təmin etmək;
- Problem haqqında məlumatları müvafiq şəxsə təqdim etmək;
- Problemin aradan qaldırılması üçün tədbir görmək;
- Alstom şirkətinin təlimatlarına və hüquqi normalara əməl etmək.

**Etik Davranış Kodeksinə əməl etməməyə görə təkcə sizə qarşı deyil, Alstom-a qarşı da sanksiyalar tətbiq edilə bilər.**

# QƏRARVERMƏ PROSESİNDƏ ETİK NORMALARA ƏMƏL ETMƏ



**Hazırki Kodeks hüquqi normalar və işgüzar etika çərçivəsində qərarlar qəbul etməyə imkan verən mexanizmləri ehtiva edir. Lakin bəzi suallara cavablar elə də sadə deyildir. Hər hansı bir işi görməzdən əvvəl qərarvermə prosesində aşağıdakıları nəzərə almaq lazımdır:**

- Alstom-un qaydaları və təlimatları ilə bu hərəkətə icazə verilir?
- Bu qərar Alstom şirkətini etika və hüquq normalarına uyğun olmayan bir vəziyyətə salır?
- Bu hərəkət Alstom-un nüfuzuna potensial olaraq zərər vuracaq?
- Bu vəziyyət faktiki yaxud ehtimal olunan maraq toqquşması yaradacaq?
- Hərəkətlərimin potensial nəticələrini diqqətlə nəzərə almışam?
- Qərarımı iş yoldaşlarıma, ailəmə yaxud dostlarıma izah etməkdə çətinlik çəkəcəyəm?
- Düzgün qərar qəbul etməyə köməklik etmələri üçün şirkətin

## ƏXLAQİ-ETİK NORMALAR PROQRAMI

**Alstom şirkəti öz fəaliyyətini etik normalar çərçivəsində və tətbiq edilən bütün beynəlxalq qaydalara, qanunlara və normativ aktlara uyğun həyata keçirir.** Alstom şirkətinin Əxlaqi-Etik Normalar Proqramı müvafiq işgüzar davranışın fundamental prinsiplərini müəyyən edir və korporativ qaydalar və işgüzar etika məsələləri üzrə Rəhbərin, həmin şöbənin mütəxəssislərinin, Etika və hüquqi normalara riayət etmə məsələləri üzrə Nümayəndələrin konsultasiyası, eləcə də qrup şəklində təlimatlar, daimi təlimlər və məlumatların yayılması daxil olmaqla, bütün əməkdaşlara peşəkar etika mədəniyyətini dəstəkləmək üçün zəruri alətləri təmin edir. Proqram korporativ qaydalar və işgüzar etika Proqramları üçün nəzərdə tutulmuş sahə standartlarına əsaslanır və müntəzəm olaraq yenilənir.

# RESURSLAR



**Dəstək və rəhbərliyin təmin edilməsi üçün Şirkət bir sıra resurslar nəzərdə tutur. Suallarınız olduqda, problemi müzakirə etmək istədikdə yaxud məlumat almaq istədiyinizdə aşağıdakılardan istənilən biri ilə əlaqə saxlaya bilərsiniz:**

- Rəhbərlik
- İnsan resursları şöbəsinin əməkdaşı
- Hüquq şöbəsinin əməkdaşı
- Korporativ qaydalar və işgüzar etika üzrə şöbənin əməkdaşı
- Etika və Hüquqi norma məsələləri üzrə Nümayəndə
- Daxili nəzarət yaxud Daxili Audit şöbəsinin əməkdaşı

Əlavə məlumatı aşağıdakı elektron resurslardan əldə edə bilərsiniz:

- Korporativ qaydalar və işgüzar etika məsələləri üzrə Sharepoint portalı: https://alstomgroup.sharepoint.com/sites/TrEthicAndComplianceCommunity/SitePages/Home.aspx
- Alstom İdarəetmə Sistemindəki (AMS) təlimatlar, qaydalar və göstərişlər
- Alstom internet səhifəsi: https://www.alstom.com/commitments/ethics

# QAYDA POZUNTULARI HAQQINDA XƏBƏRDARLIQ



**Pozuntu hallarının bildirilməsi üçün Alstom şirkətində müxtəlif yollar var. Bu Kodeksin qaydalarının, Alstom Təlimatlarının yaxud qanunların pozulduğundan şübhələnirsinizsə, bunu rəhbərinizə, İnsan Resursları yaxud Hüquq şöbəsinin mütəxəssisinə bildirməlisiniz. Bu şəxslərdən biri ilə danışmaq Sizin üçün çətinlik yaratdıqda məsələni aşağıdakılardan birinə bildirə bilərsiniz:**

- Baş Vitse-Prezidenti yaxud Regionun Vitse-Prezidenti
- Korporativ qaydalar və işgüzar etika məsələləri üzrə Regionun Vitse-Prezidenti

- **Baş Hüquqi Konsultant:**
  Emmanuelle Petrovic
  48 rue Albert Dhalenne
  93400 Saint-Ouen, France
  +33 1 1 57 06 10 36
  emmanuelle.petrovic@alstomgroup.com

- **Korporativ qaydalar və işgüzar etika məsələləri üzrə Rəhbər:**
  Inge De Venter
  48 rue Albert Dhalenne
  93400 Saint-Ouen, France
  +33 1 57 06 19 42
  inge.de-venter@alstomgroup.com

Həmçinin Alstom şirkətində "Xəbərdarlıq Proseduru" adlanan, qaynar xətt və veb-portaldan ibarət olan bir vasitə vardır, onun vasitəsilə qayda pozuntusu haqqında məxfi məlumatlar bildirilə bilər. Xəbərdarlıq proseduru əməkdaşlar, podratçılar, təchizatçılar yaxud əməkdaşlıq etdiyimiz üçüncü tərəflər üçün açıqdır və yaşadığınız yaxud işlədiyiniz ölkədə qüvvədə olan qanunlara əsasən istifadə edilməlidir.

Qayda pozuntusu haqqında xəbərdarlıqlar gündə 24 saat, həftədə 7 gün, ildə 365 gün təqdim edilə bilər. 2 bildiriş metodu vardır:

- İnternet səhifəsi: www.alstom.ethicspoint.com (qayda pozuntusunu bildirənlər məlumatı özləri daxil edir)
- Ölkələr üzrə veb-səhifədə verilən ödənişsiz qaynar xətt, telefon nömrələri (qayda pozuntusunu bildirənlər canlı operatorla danışırlar)

Əməkdaş məxfiliyi saxlamaq istədikdə bunun üçün bütün tədbirlər görüləcək. Qayda pozuntusu haqqında məlumat verdiyinə görə heç bir işçi heç bir formada təqib edilməyəcək.

# FƏALİYYƏT GÖSTƏRMƏ METODLARIMIZ

- Qanunlara və digər normativ-hüquqi aktlara əməl etmə
- Alstom şirkətinin bütün qayda və siyasətlərinə əməl etmə
- Çirkli pulların yuyulmasına qarşı tədbirlər
- Korrupsiya və rüşvətxorluğun qarşısının alınması
- Rəqabət haqqında qanunvericiliyə əməl etmə
- İxraca nəzarət və ticarət məhdudiyyətləri
- Maraqların toqquşması
- Hədiyyələr və Qonaqpətvərlik əlamətləri
- Daxili nəzarət

# QANUNLARA VƏ DİGƏR NORMATİV-HÜQUQİ AKTLARA ƏMƏL ETMƏ

**Alstom şirkətinin nüfuzu qanunlara,** normativ-hüquqi aktlara və şirkətin fəaliyyət göstərdiyi bütün ölkələrdə fəaliyyəti nizamlayan digər tələblərə əsaslanır. Alstom şirkətinin hər bir əməkdaşı vəzifə öhdəlikləri və peşəkar sahə ilə əlaqədar yaxud onlara təsir edən qanunları, normativ-hüquqi aktları və tələbləri bilmək öhdəliyi daşıyır. Həmin qanunların yaxud normativ-hüquqi aktların pozulması həm şirkət əməkdaşlarının, həm də Alstom şirkətinin özünün mülki yaxud cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələnə bilər.

Yüksək etik prinsiplərimizi saxlamaq üçün həm də tətbiq edilən daxili qanunlar və normativ-hüquqi aktların əhatə etmədiyi bir sıra standartlara əməl etməyi tələb edirik. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT), BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, Qlobal Razılaşmanın, Beynəlxalq Əmək Təşkilatının Əsas Konvensiyalarının, Beynəlxalq Ticarət Palatasının və Fransanın sayıqlıq haqqında Qanununun prinsiplərinə əməl edirik.

# ALSTOM ŞİRKƏTİNİN BÜTÜN QAYDA VƏ SİYASƏTLƏRİNƏ ƏMƏL ETMƏ



**Şirkətin fəaliyyətində tətbiq edilən qanunlar və normativ-hüquqi aktlardan əlavə** Alstom-da əməkdaşların gündəlik fəaliyyətdə rəhbər tutduqları daxili qaydalar, təlimatlar, norma və prinsiplər mövcuddur. Hər bir əməkdaş şirkətin bütün qaydalarına əməl etməlidir. Qaydaları pozmaq yaxud onlara riayət etməmək işdən azad edilmə daxil olmaqla intizam tədbirinin görülməsi ilə nəticələnə bilər.

# ÇİRKLİ PULLARIN YUYULMASINA QARŞI TƏDBİRLƏR

**Çirkli pulların yuyulması – vergidən yayınma, korrupsiya, maliyyə dələduzluğu yaxud terrorizm və qanunsuz yolla alınan vəsaitlərin gizlədilməsi kimi cinayət fəaliyyətindən əldə edilən vəsaitlərin leqallaşdırılması prosesidir.** Çirkli pulların yuyulmasının qarşısının alınması üçün Alstom şirkətində prosedurlar mövcuddur. Alstom həmişə pul vəsaitlərinin mənbəyini yoxlayır, etibarlı partnyorlarla iş görür və maliyyə əməliyyatlarını çirkli pulların yuyulması ilə mübarizə üzrə tətbiq edilən qanunlar və normativ-hüquqi aktlara uyğun olaraq aparır.

Təklif edilən sövdələşmə şübhəlidirsə yaxud o, tətbiq edilən qanunları, normativ-hüquqi aktları yaxud Alstom şirkətinin çirkli pulların yuyulması ilə mübarizə üzrə prinsiplərini və prosedurlarını pozursa, bunu birbaşa rəhbərinizə yaxud Maliyyə şöbəsinə bildirin.

# KORRUPSİYA VƏ RÜŞVƏTXORLUĞUN QARŞISININ ALINMASI

**Alstom öz nüfuzunu işini vicdanla görən şirkət olaraq saxlamağın tərəfdarıdır.** Bu o deməkdir ki, şirkət, fəaliyyətində korrupsiyanın yolverilməz olduğunu bildirərək etibar və qarşılıqlı anlaşma əsasında münasibət qurur.

**Rüşvət nə alırıq, nə də veririk.** Şirkətin bütün əməkdaşlarına müsbət qərarın verilməsi, kommersiya mənfəətinin əldə edilməsi yaxud biznesin saxlanılması müqabilində ödəniş təklif etmək, ödəmək, tələb yaxud qəbul etmək qadağan edilir. Bu qadağa rəsmiləşdirmə işinin asanlaşdırılması, adətən qanuni yollarla aparılan vacib inzibati prosedurların "sürətləndirilməsi" üçün kiçik məbləğlərdə olan ödənişlərə də aiddir. Bu cür ödənişlər kiçik korrupsiyanın bir formasıdır Alstom şirkətinin siyasətinə ziddir və bir çox ölkələrdə qanunsuz hesab olunur.

Şirkətin bütün əməkdaşlarının Alstom-un fəaliyyət göstərdiyi ölkələrin rüşvətxorluq və korrupsiya ilə mübarizəyə qarşı qanunlarına əməl etmək öhdəliyi var. Alstom İƏİT-in Rüşvətxorluqla mübarizə Konvensiyasının, Fransa Respublikasının cinayət qanunvericiliyinin, ABŞ-ın Xaricdə Korrupsiya haqqında Qanununun, Fransanın korrupsiya ilə mübarizə haqqında 2007-ci il tarixli Qanununun, Fransanın korrupsiya ilə mübarizə haqqında Qanununun (Sapin II), Böyük Britaniyanın rüşvətxorluq haqqında 2010-cu il tarixli Qanununun, eləcə də şirkətin fəaliyyət göstərdiyi ölkələrdə tətbiq edilən qanunlar və normativ-hüquqi aktların bütün tələblərini yerinə yetirir.
Alstom eləcə də Beynəlxalq Ticarət Palatasının standartlarına və ABŞ-ın xarici iqtisadi fəaliyyətdə korrupsiya ilə mübarizə haqqında Qanununun tətbiq edilməsi üzrə Sorğu kitabçasının təlimatlarına əməl edir. Bu qanunlardan hər hansı birinin pozulması ciddi qanun pozuntusu hesab olunur, bir şirkət kimi Alstom və onun işçilərinə qarşı irihəcmli cərimələr tətbiq oluna bilər. Bu qanunların pozulmasından şübhələnmə belə Alstom-un nüfuzuna xələl yetirə bilər və şirkətin əməkdaşları riskə məruz qala bilər.

ƏLAVƏ MƏLUMAT ALMAQ ÜÇÜN ALSTOM-UN LGL-WMS-020 "TİCARƏT PARTNYORLARI" ADLI TƏLİMATINA BAXIN YAXUD MƏSLƏHƏT ÜÇÜN KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

— PRAKTİKİ NÜMUNƏ —

**S** Böyük sifarişçilərimizdən biri subpodratçımıza müəyyən məbləğdə vəsaitin ödənildiyi halda müqavilənin bağlanmasını təmin edə biləcəyini demişdir. Subpodratçı bu təklifi bizə bildirdi və buna razı olduğunu, məbləği gələcək hesab-fakturaya əlavə edə biləcəklərini dedi. Bu cür razılaşma yolverilləndir?

Xeyr. Bu ödəniş növü qərarvermə prosesinə qanunsuz təsir etmək üçün nəzərdə tutulmuşdur və rüşvət hesab olunur. Bu cür ödənişlər qanunsuzdur. Podratçını bu cür ödənişlər etməmək barədə məlumatlandırmaq, həmçinin Korporativ qaydalar və işgüzar etika yaxud Hüquq şöbəsinə xəbər vermək lazımdır.

**S** İş yoldaşım göndərdiyimiz bəzi avadanlıqların gömrük rəsmiləşdirməsi üçün yerli "konsultant" tutmağı tövsiyə etdi. Konsultant böyük məbləğdə ilkin ödəniş tələb etdi və izah etdi ki, vəsait yükün maneəsiz göndərilməsi və gömrük rəsmiləşdirməsi prosedurunun sürətləndirilməsi üçün istifadə olunacaq. Vəsaitin xərclənmə məqsədini bilmədiyimizə görə bu cür razılaşma yolverilləndir?

Xeyr. Bu cür ödəniş gizli rüşvət ola bilər və təbii ki qadağan edilir. Satış üzrə konsultantlar cəlb edildiyi halda Alstom-da ciddi maliyyə-hüquqi ekspertiza nəzərdə tutulur və həmin prosedur şirkət adından əməkdaşlıq edilən şirkətlərə lazımsız ödənişlərin edilməməsi məqsədilə konsultantların fəaliyyətinin monitorinqindən ibarətdir.

**S** Alstom şirkəti yeni ofis açır və yerli səlahiyyətli orqanlar yerləşmə haqqında icazə alana kimi ümumi "haqq" ödəməyi tələb etmişdir. Tələb edilən məbləğ böyük deyil, ofisə köçə bilmək üçün həmin haqqı ödəmək düzgündür?

Xeyr. Bu ödəniş qanuni deyildir, onu ödəməməlisiniz. Bu məsələ barədə əlavə məsləhət üçün Korporativ qaydalar və işgüzar etika yaxud Hüquq şöbəsinə müraciət edin.

# RƏQABƏT HAQQINDA QANUNVERİCİLİYƏ ƏMƏL ETMƏ

**Rəqabət haqqında qanun şirkətlərin bazarda düzgün rəqabət aparmasını təmin edir. Alstom şirkəti rəqabət haqqında bütün müvafiq qanunlara əməl edir və öz fəaliyyətini ədalətli və açıq rəqabət əsasında aparır.** Alstom şirkətinin əməkdaşları məqsədi yaxud nəticəsi sövdələşmə üzrə qiymətlərin müəyyənləşdirilməsi, tender prosesinin pozulması, bazar yaxud sifarişçilərin bölüşdürülməsi, istehsalatın məhdudlaşdırılması yaxud sifarişçi və ya təchizatçıya maneçilik törətmək olan rəqiblərlə heç bir razılaşmada iştirak etməməlidir.



**Alstom şirkətinin əməkdaşları rəqabət haqqında qanunları pozaraq məxfi kommersiya məlumatlarını** rəqiblərlə bölüşməməlidir. Məxfi məlumata qiymətlərlə bağlı məlumatlar, alqı-satqı şərtləri, məhsulların keyfiyyəti, texniki xüsusiyyətləri, gəlirlər, marja və məhsuldarlıq haqqında məlumatlar, satışlar yaxud sifarişlər, müştərilər, istehsalın həcmi, istehsal gücü, xərclər, investisiya planları və elmi-tədqiqat və təcrübə-konstruktor işləri haqqında məlumatlar daxildir.

**Rəqabət haqqında qanunların pozulması Alstom şirkətinin ciddi şəkildə cərimələnməsi ilə nəticələnə və şirkətin nüfuzuna xələl yetirə bilər.** Bundan başqa, fiziki şəxslər mülki, əmək yaxud həbs olunma daxil olmaqla cinayət məsuliyyətinə cəlb oluna bilər. Rəqabət haqqında qanunlara ciddi şəkildə riayət etməyin real və gözəçarpan üstünlükləri vardır: innovasiyaların irəli çəkilməsi, yüksək keyfiyyətli məhsulların istehsalı, istehlakçıların müdafiəsi və Alstom şirkətinin öz işini ədalətli şəkildə aparmasını gücləndirmək. Bu qaydalar mürəkkəb olduğuna və ölkədən ölkəyə fərqləndiyinə görə əməkdaşlar məsləhət üçün Korporativ qaydalar və işgüzar etika yaxud Hüquq şöbəsinə müraciət etməlidirlər.

ƏLAVƏ MƏLUMAT ALMAQ ÜÇÜN LGL WMS 007 "RƏQABƏT YAXUD ANTİİNHİSAR QAYDALARINA ƏMƏL ETMƏ" ADLI TƏLİMATA BAXIN YAXUD MƏSLƏHƏT ÜÇÜN KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

PRAKTİKİ NÜMUNƏ

**S** Ticarət asossiasiyasının iclası zamanı qəhvə fasiləsində müxtəlif rəqiblərin Satış Menecerləri ilə görüşdüm. Rəqib A dedi: "Gələn ay yəqin ki qiymətləri 5%-ə qədər artıracağıq". Rəqib B qiymətlərin həqiqətən də bu məbləğə qədər artırılmalı olması ilə razılaşdı. Amma mən bir Alstom nümayəndəsi kimi heç nə deməməyimlə düzgün iş görmüşəm?

Xeyr, heç nə deməsəniz belə bu, qiymətin sövdələşmə ilə müəyyənləşdirilməsi demək olacaq. Belə müzakirə getdikdə etiraz etməli, iclası tərk etməli və əmin olmalısınız ki, etirazınız və iclası tərk etməyiniz iclas protokolunda müvafiq şəkildə əks etdirilmişdir. Həmçinin bu barədə hesabatı növbəti addımlar üzrə qərar qəbul edəcək Hüquq şöbəsinə göndərməlisiniz.

**S** Tez-tez sərgilərdə iştirak edirəm və bəzən rəqiblərlə işləyən yoldaşlarla rastlaşıram. Bəzən iştirakçılar sərgidən sonra söhbətləşmək üçün bar yaxud restoranda görüşürlər. İşlə bağlı mövzulardan uzaq olmağa çalışırıq, amma bu yaxınlarda keçirilən sərgidə rəqib tərəfdə işləyən bir nəfər hazırladıqları yeni texnologiyadan danışdı və detalları açıqlamağa başladı. Bu cür söhbət yolverilləndir?

Xeyr. Rəqiblərlə məhsullar, məhsulun hazırlanması, texnologiyası və ya qiyməti haqqında danışmağa icazə verilmir. Bu vəziyyətlə üzləşdiyinizdə söhbəti dərhal dayandırmalı və Korporativ qaydalar və işgüzar etika şöbəsinə məlumat verməlisiniz.

# İXRACA NƏZARƏT VƏ TİCARƏTDƏ MƏHDUDİYYƏTLƏR




**Alstom şirkəti malların və xidmətlərin idxalı və ixracı üzrə fəaliyyət göstərən beynəlxalq şirkətdir.** Şirkət beynəlxalq ticarət üzrə bütün tətbiq edilən qanunlara, qayda və normalara əməl edir. Həmçinin hökumətin qəbul etdiyi və şirkətin fəaliyyətinə tətbiq edilən ticarət sanksiyalarına, idxal/ixrac məhdudiyyətlərinə riayət edilir. Həm mülki, həm də hərbi sahələrdə istifadə oluna bilən komponentlər, proqram təminatı və texnoloji məlumatlar kimi ikili təyinatı olan texnologiyalara və mallara xüsusi diqqət yetirilməlidir.

Beynəlxalq ticarətlə əlaqəsi olan Alstom əməkdaşları tətbiq edilən bütün son qaydaların riayət olunmasına zəmanət verməlidir və lazım gəldikdə məsləhət və dəqiqləşdirmə üçün Korporativ qaydalar və işgüzar etika yaxud Hüquq şöbəsinə müraciət etməlidirlər. Qanunlara və normativ-hüquqi aktlara əməl etməmək həm Şirkətə, həm də onun əməkdaşlarına qarşı sanksiyaların tətbiq edilməsi ilə, eləcə də gələcək ixrac fəaliyyətinə qadağanın qoyulması və cinayət məsuliyyəti ilə nəticələnə bilər.

DAHA ƏTRAFLI MƏLUMAT ALMAQ ÜÇÜN LGL WMS 029, "İXRACA NƏZARƏT VƏ TİCARƏTDƏ MƏHDUDİYYƏTLƏR" ADLI TƏLİMATA BAXIN YAXUD MƏSLƏHƏT ÜÇÜN KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

PRAKTİKİ NÜMUNƏ

**S** Təcili şəkildə Fransadan ticarət sanksiyası tətbiq edilməyən Cənubi Asiyada yerləşən bir ölkədəki sifarişçi üçün arabacıq yastıqlarını ixrac etməliyəm. Fikirləşirəm ki, bu halda ixraca nəzarət qaydaları tətbiq edilmir və yastıqların necə ikili təyinatı olan mal hesab edildiyi başa düşə bilmirəm. Göndərmə proseduruna davam edə bilərəm?

Xeyr, Aİ-nin ikili təyinatlı mallar haqqındakı Əsasnaməsi müəyyən yastıqları ikili təyinatı olan mal kimi təsnifləndirir və Avropa İttifaqından kənarkı bütün ixrac növlərinə aid edilir (sanksiyalar təyinat ölkəsinə tətbiq edilmədikdə belə). Göndərməzdən əvvəl ixrac olunan malın ikili təyinat haqqında müvafiq əsasnamə ilə nizamlanıb-nizamlanmadığını yoxlamalısınız.

**S** Alstom şirkətinin bir sıra layihələr həyata keçirdiyi Şərqi və Cənubi Afrika (COMESA) ölkəsində vacib biznes imkanı haqqında eşitmişəm. Potensial sifarişçi satınalma və layihənin tez bir zamanda icrasını istəyir. Anlaşma memorandumu növbəti həftələrdə imzalanacaq. Əvvəlcədən təsdiq almalıyam?

Bəli, biznesin inkişafı üçün yeni imkanlarla bağlı hər hansı sənəd imzalamazdan əvvəl hədəf ölkəyə ticarət sanksiyalarının tətbiq edilib-edilmədiyini yoxlamalı və lazımi təsdiqləri əldə etməlisiniz.

# MARAQLARIN TOQQUŞMASI

**Maraqların toqquşması şəxsi maraqlar Alstom şirkətinin qanuni işgüzar maraqlarını pozduqda baş verir**. Şəxsi, sosial, maliyyə yaxud siyasi fəaliyyətiniz (yaxud ailə üzvlərinizin və ya qohumlarınızın fəaliyyəti) Alstom-dakı peşəkar öhdəliklərinizə təsir etdikdə maraqların toqquşması baş verə bilər. Faktiki yaxud ehtimal olunan maraq toqquşması halı ilə üzləşdiyinizdə bunu birbaşa rəhbərinizə bildirməlisiniz.

**Aşağıdakı vəziyyətlər maraq toqquşması yarada bilər:**

- Əvəzçilik üzrə işləmək
- Direktor yaxud konsultant vəzifəsində fəaliyyət göstərmək
- Mövcud yaxud potensial təchizatçının, müştərinin, rəqibin, konsaltinq şirkətinin yaxud Alstom şirkətinin işgüzar partnoyunun şirkətinə sərmayə qoymaq yaxud orada paya sahib olmaq
- Müştəri, təchizatçı, satış partnyoru yaxud ailə üzvləriniz və ya qohumlarınız üçüncü tərəfin işçisi olduğu halda həmin üçüncü tərəf ola biləcək biznes partnyoru ilə birbaşa iş görmək
- Keçmiş dövlət qulluqçularının yaxud onların ailə üzvlərinin işə götürülməsi

Maraqların toqquşmasının qarşısını almaq üçün işçilər sağlam fikir sahibi olmalı və işgüzar qərarların obyektivliyinin pozulduğu bütün vəziyyətlərdə müvafiq şəkildə hərəkət etməlidirlər.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN LGL WMS 015 "MARAQ TOQQUŞMALARININ İDARƏ EDİLMƏSİ" ADLI TƏLİMATA BAXIN YAXUD KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

PRAKTİKİ NÜMUNƏ

**S** Qardaşımın Alstom-un təchizatçısı olan kiçik bir şirkətdə payı var. Biz biznes haqqında danışmırıq və təchizatçı cəlb etmək barədə qərarlarda heç vaxt iştirak etməmişəm. Bu münasibətlər barədə məlumat verməliyəm?

Bəli. Münasibətlərinizin maraq toqquşması yaratma mümkünlüyü var. Bunu İnsan Resurslarına və Rəhbərinizə açıqlamalı və tələb olunan açıqlama formasını doldurmalısınız. Birbaşa maraq toqquşması olmasa da maraq toqquşması görüntüsü siz və Alstom üçün problem yarada bilər.



# HƏDİYYƏLƏR VƏ QONAQPƏRVƏRLİK ƏLAMƏTLƏRİ




**İşgüzar münasibətlər kontekstində maddi hədiyyələr yaxud qonaqpərvərlik əlamətləri** mübadiləsi maraqların toqquşması görüntüsü yarada bilər və işin düzgün şəkildə mülahizə edilməsinə mane ola bilər. Alstom zəmanət verir ki, bütün işgüzar qərarlar ədalətli rəqabət, şirkətin təqdim etdiyi məhsulların və xidmətlərin texniki xüsusiyyətləri və keyfiyyəti əsasında verilir. Qanunu, vəzifə öhdəliklərini, Etik davranış Kodeksi yaxud Alstom şirkətinin tətbiq etdiyi təlimatları pozaraq hər hansı növ üstünlük əldə etmək yaxud işgüzar qərarın nəticəsinə təsir etmək məqsədilə hədiyyə vermək və ya qonaqpərvərlik göstərmək yolverilməzdir.

**İstənilən hədiyyə və ya qonaqpərvərlik əlaməti pul ekvivalentində olan mövcud məhdudiyyətlərə və Alstom-un Hədiyyələr və Qonaqpərvərlik əlamətləri üzrə Təlimatında verilmiş ilkin təsdiqləmə proseduruna uyğun olmalıdır.** Bütün hədiyyələr və qonaqpərvərlik əlamətləri qanuni və əsaslandırılmış işgüzar təyinata malik olmalıdır.

Alstom şirkətinin əməkdaşlarına hədiyyələr, əyləncə, tədbir biletləri, qonaqlama, xidmətlər, güzəştlər, əmlakdan yaxud avadanlıqdan istifadə, işgüzar qərara təsir etmək cəhdi olan digər diqqət əlamətləri daxil olmaqla, dəyəri olan istənilən əşyanı təklif, qəbul etmək yaxud ailə üzvünə və ya qohumuna qəbul etməyə icazə vermək qadağan edilir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN LGL WMS 010, "HƏDİYYƏLƏR VƏ QONAQPƏRVƏRLİK ƏLAMƏTLƏRİ" ADLI TƏLİMATINA BAXIN YAXUD KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

**— PRAKTİKİ NÜMUNƏ —**

**S** **Təchizatçıdan hədiyyə qismində iPad almışam və onun üzərinə ad və soyadımın baş hərfləri həkk olunub. Bilirəm onu qəbul etməməli idim, amma onları təhqir etmək istəmədim. Üzərində artıq işləmələr olduğuna görə onu qəbul edə bilərəm?**

Xeyr. Hədiyyəni nəzakətlə təchizatçıya geri qaytarın və Alstom şirkətinin siyasətini onlara izah edin. Məsələni həll etməkdə köməklik lazım olduqda Korporativ qaydalar və işgüzar etika / Hüquq şöbəsinə müraciət edin.

**S** **Böyük bir layihə sona çatdıqda sifarişçiyə hədiyyə vermək adəti vardır, adətən bu hədiyyə Alstom qatarının modeli olur. Qatar modelləri kifayət qədər dəyərlidir, amma bunu müntəzəm olaraq etdiyimizə görə bu il də təsdiq prosesindən keçmək zəruridir?**

Bəli, əvvəllər təsdiqlənsə belə yenidən lazımi təsdiqləmə prosesindən keçmək lazımdır. Hədiyyələrin və qonaqpərvərlik əlamətlərinin nəzərdən keçirilməsi və təsdiqlənməsi üçün Alstom şirkətinin ciddi bir prosesi nəzərdə tutulmuşdur. Korporativ qaydalar və işgüzar etika / Hüquq şöbəsi ilə məsləhətləşməlisiniz.

**S** **Alstom şirkətinin müştərisinə gedə bilmədiyim mədəniyyət tədbirinin biletlərini təklif edə bilərəm?**

Bu cür qonaqpərvərlik əlaməti üçün həmin tədbirdə Alstom şirkətindən bir nəfər iştirak etməli və tədbir çərçivəsində qanuni işgüzar əlaqələr qurmaq imkanı olmalıdır. Həmçinin əyləncə məqsədəuyğun olmalı və şirkətin Hədiyyə və Qonaqpərvərlik əlamətləri üzrə Təlimatında olan qəbul edilmiş pul məbləğini aşmamalıdır.

# DAXİLİ NƏZARƏT

**Fond birjasında qeydiyyatda olan bir şirkət kimi Alstom mühasibatlıq uçotu və maliyyə hesabatları ilə bağlı bütün məsələlərdə doğru və dəqiq məlumat təqdim etməlidir.** İstənilən pozuntu halının həm Şirkət, həm də məsul şəxslər üçün ciddi nəticələri ola bilər.

**Alstom şirkətində uçot kitablarında və uçot qeydlərindəki məlumatların doğruluğunu təmin etmək üçün daxili nəzarət sistemi nəzərdə tutulmuşdur.** Uçot qeydlərinin, maliyyə hesabatlarının dəqiqliyini və doğruluğunu təmin etmək və Alstom-un daxili qayda və prosedurlarına, tətbiq edilən qanunlara, normativ-hüquqi aktlara və tələblərə əməl etmək üçün şirkətdə təfsilatlı proseslər tətbiq edilmişdir. Mühasibatlıq uçotu və maliyyə hesabatlarının aparılması üçün şirkət Hesabatvermə və Mühasibatlıq uçotu üzrə Təlimata ciddi şəkildə əməl edir.

Dələduzluq hallarının qarşısının alınması və aşkarlanması fəaliyyətin işgüzar etika və hüquq normaları çərçivəsində aparılması üçün Alstom şirkətinin öhdəliklərinin əsas hissəsidir. Dələduzluq qanunsuz yolla gəlir əldə etmək üçün aldatmaq, oğurlamaq yaxud yalan danışmaqdır. Dələduzluq hallarına aid ola bilər: xərclər haqqında saxta hesabatların təqdim edilməsi, qəbzlərin saxtalaşdırılması yaxud dəyişdirilməsi, şirkətin əmlakının qanunsuz mənimsənilməsi yaxud sui-istifadəsi, icazəsiz sövdələşmələr və ya pul vəsaitinin ödənilməsi, kiçik məbləğlərin qanunsuz istifadəsi, mühasibatlıq kitablarında mühasibatlıq uçotu standartlarına və Alstom şirkətinin hesabatına uyğun gəlməyən qeydlərin aparılması.

Alstom şirkətinin bütün əməkdaşları tərtib etdikləri bütün qeydlərin, hesabatların yaxud məlumatların doğru, dolğun və vaxtında olmasını təmin etməlidirlər. Belə sənədlərə maliyyə hesabatları və proqnozları, tədqiqatlar barədə hesabatlar, marketinq məlumatları, satışlar üzrə hesabatlar, vergi hesabatları, xərclər, gəlirlər üzrə hesabatlar, iş vaxtı üzrə uçot tabelləri, sosial məlumatlar, ətraf mühit üzrə məlumatlar və dövlət yaxud nəzarət orqanlarına təqdim edilənlər də daxil olmaqla digər sənədlər aiddir. Alstom şirkətinin əməkdaşları bütün sənədləşmələri şirkətin sənədlərin saxlanılması üzrə siyasətinə və məlumatların məxfiliyi qaydalarına uyğun olaraq aparmalı, saxlamalı, arxivləşdirməlidirlər. Mülki, cinayət yaxud tənzimləyici proseslə bağlı sənədləri məhv etmək qadağan edilir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN SEC PRO 002 "OĞURLUĞUN BİLDİRİLMƏSİ VƏ ARAŞDIRILMASI"; LGL PRO 002 "DƏLƏDUZLUĞUN BİLDİRİLMƏSİ VƏ ARAŞDIRILMASI"; VƏ HRM POL 007 "BEYNƏLXALQ SƏYAHƏT VƏ XƏRCLƏR SIYASƏTİ" ADLI TƏLİMATINA BAXIN. SUAL YARANDIQDA DAXİLİ NƏZARƏT YAXUD MALİYYƏ ŞÖBƏSİNDƏN MƏSLƏHƏT ALIN.

PRAKTİKİ NÜMUNƏ

**S** **İşlədiyim şöbədə büdcəni izləmək üzrə məsulam. Bu yaxınlarda iş yoldaşım mənə yaxılaşdı və büdcədə xərclərin çox olduğunu və xərclərdən bəzilərini büdcənin bərpa olacağı növbəti maliyyə ilinə keçirmək istədiyini bildirdi. Xərclərin uçotu onsuz da dəqiqliklə aparılacaq, ona görə də xərcləri növbəti maliyyə ilinə keçirmək düzgündür?**

Xeyr. Xərclərin vaxtını təhrif etmək qadağandır. Xərclər üzrə mühasibatlıq qeydləri vaxtında və dəqiqliklə, faktiki olaraq çəkildiyi maliyyə ilində aparılmalıdır. Qeyri-dəqiq yaxud saxta mühasibatlıq şirkət yaxud işçinin özü üçün ciddi nəticələr yarada bilər.

**S** **Bir neçə ay bundan əvvəl işgüzar səfərdə idim və səyahət zamanı çəkdiyim bütün xərcləri təqdim etməyi unutmuşam. Digər işgüzar səyahət üçün xərclərin hesabatını təqdim etmək üzrəyəm və keçən hesabatda buraxdığım xərcləri əks etdirmək məqsədilə yeni hesabatdakı bir neçə rəqəmi artıra biləcəyimi düşündüm. Ümumi təzminat məbləği eyni qaldığına görə bu cüzi bir məbləğ kimi görünür. Çəkilən xərcləri bu yolla təqdim edə bilərəm?**

Xeyr. Xərclər haqqında hesabat təqdim etdikdə bütün bəndləri dəqiq və düzgün göstərməlisiniz. Saxta xərc hesabatı təqdim etmək dələduzluqdur və uçot sənədləri dəqiq olmayacaq, bu da Sizin yaxud şirkətin cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələnə bilər.

# İŞGÜZAR PARTNYORLARIMIZLA ETİBARLI MÜNASİBƏTLƏRİN QURULMASI



# SİFARİŞÇİLƏR

**Alstom şirkəti sifarişçilərə tələblərinə uyğun yüksək keyfiyyətli məhsullar təqdim etmək və xidmətlər göstərmək öhdəliyini üzərinə götürür.** Öz sahəsində lider olmaq üçün Şirkət səmərəlilik, artım, innovasiya və dayanıqlılığı hədəf götürür.

Müqavilələr yaxud layihələr üzrə danışıqlar aparan əməkdaşlar sifarişçilərə təqdim edilən bəyanatların, məlumatların və təqdimatların dəqiq və düzgün olmasını təmin etməlidir. Şirkətin əməkdaşları sifarişçi haqqındakı məxfi, gizli yaxud xidməti məlumatları açıqlamamalıdır. Belə məlumatlar yalnız qanuni əsaslarla məlumatın lazım olduğu şəxslərə yaxud da həmin məlumata artıq yiyələnən şəxslərə açıqlana bilər.



# TƏCHİZATÇILAR VƏ PODRATÇILAR



**Alstom təchizatçılar, podratçılar və konsultantlar kimi kənar üçüncü tərəflərlə münasibətlərə yüksək dəyər verir.** Malların yaxud xidmətlərin alınması istismar xüsusiyyətləri, qiymət, keyfiyyət, texniki parametrlər, çatdırılma, dayanıqlılıq və yararlılıq kimi neytral və obyektiv meyarlara əsaslanır.

Bu münasibətlər Satınalma və təchizat zənciri şöbəsinin bütün təchizatçılara və podratçılara qarşı bərabər münasibətin təmin edilməsi üçün nəzərdə tutulmuş prosedurları ilə tənzimlənir. Təchizatçıların və podratçıların seçilməsi və idarə edilməsində maraqların toqquşmasının və tərəfgirliyin qarşısının alınması üçün bütün tədbirlər görülür.

Alstom şirkətinin əməkdaşlarına müəyyən təchizatçılar və podratçıların xeyrinə olan qərarların verilməsi müqabilində dəyərli mükafatlar almaq qadağan edilir. Qərarvermə prosesinin diskreditasiyasının olmaması üçün üçüncü tərəflərlə münasibətlər diqqətlə idarə olunmalıdır.

**Alstom şirkəti öz təchizatçılarından və podratçılarından** Dayanıqlı inkişaf və işgüzar etika Xartiyasını imzalamağı və fəaliyyətlərinə və işgüzar mühitə aid bütün hüquqi tələblərə ciddi şəkildə əməl etməyi tələb edir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN LGL WMS 016, "TƏCHİZATÇILAR VƏ PODRATÇILARLARLA MÜNASİBƏTLƏRDƏ KORRUPSİYANIN QARŞISININ ALINMASI"; SCG WMS 011 "DAYANIQLI İNKİŞAF PROSESİ"; SCG FRM 002 "ETİKA VƏ DAYANIQLI İNKİŞAF XARTİYASI"; LGL WMS 014 "KONSALTİNQ ŞİRKƏTLƏRİ" ADLI TƏLİMATLARINA BAXIN YAXUD MƏSLƏHƏT ÜÇÜN KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

**PRAKTİKİ NÜMUNƏ**

**S Kompüter avadanlığının təchizatı üçün yeni şirkətləri nəzərdən keçiririk. Təklifimizə cavab verən təchizatçılardan biri yaxşı məhsul təklif edir, amma qiymətlər digərlərinə nisbətən daha bahadır. Digər bir təchizatçı eyni keyfiyyətdə olan məhsul və xidmət təklif etmir, amma qiymətlər daha ucuzdur. Qeyd edilmiş qiyməti aşağı salmaq məqsədilə ikinci şirkətin qeyd etdiyi qiyməti birinci şirkətə bildirə bilərəm?**

Xeyr. Rəqib olan təchizatçılar arasında məxfi məlumatları paylaşmaq etik deyildir və bir çox ölkələrdə qanun pozuntusudur. Amma birinci şirkətə qiyməti və ya ikinci təchizatçının kimliyini açıqlamadan daha yaxşı qiymətlər tapdığımızı bildirə bilərsiniz.

**S Sifarişçinin tövsiyəsi ilə bir təchizatçı işə cəlb etmək istəyirik. Məlumatımıza görə bu təchizatçı yaxşı nüfuza malikdir və uzun müddətdir ki sifarişçimizlə uğurlu əməkdaşlıq edir. Vaxta qənaət etmək və sifarişçimizi məmnun etmək üçün adi təchizatçı seçimi prosesimizdən yan keçmək istəyirik. Sifarişçi həmin şirkəti tanıdığına və ona etibar etdiyinə görə qaydaların nəzərdə tutduğu prosedurları keçmədən onu cəlb etmək olar?**

Xeyr. Alstom şirkətinin təchizatçı yoxlaması və seçimi üzrə olan vacib prosedurunu keçirmədən həmin şirkəti cəlb edə bilmərik.

# TİCARƏT PARTNYORLARI

**Bəzən Alstom şirkəti biznesin inkişafı, satış yaxud marketinq işləri üzrə tədbirlərdə köməklik** etmək məqsədilə üçüncü tərəflər cəlb edir. Belə üçüncü tərəflər şirkətdə "Ticarət partnyorları" adlandırılır. Bu cür işgüzar partnyorların gördüyü işlər Alstom-un potensial yaxud mövcud müştəriləri yaxud istənilən dövlət orqanı və ya özəl təşkilatlarla işdən ibarətdir.

Şirkətdə ticarət partnyorlarının hərtərəfli və ciddi seçimi, təsdiqlənməsi, müqavilənin bağlanması, partnoyrları idarəetmə və mükafatlandırma proseduru nəzərdə tutulur. Tələblərə uyğun olaraq Alstom şirkətinin bütün ticarət partnyorları şirkətin siyasətinə və onların fəaliyyətinə tətbiq olunan bütün qanunlara və normativ-hüquqi aktlara əməl etməlidirlər.

Ticarət partnoyurunun qanunu yaxud da Alstom şirkətinin siyasətini pozduğunu ehtimal edirsinizsə, bunu Korporativ qaydalar və işgüzar etika şöbəsinə bildirin.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN LGL-WMS 020. "TİCARƏT PARTNYORLARI" TƏLİMATINA BAXIN YAXUD MƏSLƏHƏT ÜÇÜN KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

PRAKTİKİ NÜMUNƏ

**S Yeni bazarda böyük bir müqavilənin bağlanması üçün vacib ola bilən ticarət partnoyurunun təyin olunmasına vaxtım çox azdır. İşin başlaması üçün həmin partnyoru şifahi şəkildə təsdiqləyib lazımi sənədləşdirməni və yoxlamanı daha sonra keçirə bilərəm?**

Xeyr. Qabaqcadan ilkin hüquqi yoxlama, daxili təsdiqləmə prosesi və standart yazılı razılaşmanın imzalanması tələb olunur. Təcrübəli və nüfuzlu konsultantlar qeyd edilən prosedurların işə rəsmi şəkildə başlamazdan əvvəl keçirildiyini bilirlər.

**S Hazırda şirkətin fəaliyyət göstərmədiyi bir ölkədə layihə reallaşdırmaq imkanını nəzərdən keçiririk. Potensial imkanlar və yerli satınalma prosesi barədə daha çox öyrənməkdə bizə köməklik etmək üçün ticarət partnyoru cəlb etmək istəyirik. Ticarət partnyoru ilkin olaraq az məvaciblə işləməyə, müqavilə bağladıqdan sonra bonusdan gələn təzminat almağa razıdır. Ödəniş üzrə belə razılaşma düzgündür?**

Xeyr. Şirkətin siyasətinə əsasən ticarət partnoyunu uğurlu nəticəyə görə mükafatlandırmağa icazə verilmir. Bu cür ödənişlər işin aparılması yaxud qanunsuz üstünlüyün əldə edilməsi məqsədilə rüşvət ödəmək qismində istifadə edilə bilər.

# DÖVLƏT SATINALMALARI

Dövlət satınalmaları dövlət müəssisələrinin və büdcə strukturlarının mallar, xidmətlər və işlər əldə etməsi deməkdir. Dövlət və ictimai təşkilatlarla müqavilələr sərt və kompleks standartlara uyğunluğu tələb edir. Alstom dövlət tərəfindən malların və xidmətlərin satın alınmasını tənzimləyən qanunlara və normativ-hüquqi aktlara əməl edir.

Alstom rüşvətxorluq və dövlət qulluqçularına təsir etməyə yönlənmiş qanunsuz yaxud qeyri-etik hərəkətlərin yaxud cəhdlərin bütün formalarını qadağan edir. Şirkət korrupsiya əleyhinə olan bütün qanunlara riayət edir və düzgünlük və doğruluq prinsiplərinin və dövlətlə müqavilələr bağlandığı halda onları bütün müqavilə və hüquqi öhdəlilərə uyğun şəkildə yerinə yetirmək tərəfdarıdır. Dövlətə aid gizli məlumatlar əldə edildikdə isə əməkdaşların həmin məlumata tətbiq edilən təhlükəsizlik prosedurlarına əməl etməsi xüsusilə vacibdir.

**Bu qaydalar kompleks olduğuna və ölkədən ölkəyə fərqləndiyinə görə şirkət əməkdaşları lazım olduqda dəqiqləşdirmə üçün Hüquq şöbəsinə müraciət etməlidirlər.**

# ALSTOM SOSİAL MƏSULİYYƏTİ YÜKSƏK OLAN ŞİRKƏTDİR



Alstom şirkətinin strategiyasının əsasında əməkdaşlar, sifarişçilər və digər maraqlı tərəflərlə münasibətdə məsuliyyəti üzərinə götürmək və korporativ etikaya əməl etmək durur. Biznesi və işgüzar əməliyyatları aparma strategiyasında şirkət ekoloji və sosial normaları, insan hüquqlarını və istehlakçıların maraqlarını nəzərə alır. İşgüzar davranışları ilə Alstom əməkdaşları bu tapşırıqların yerinə yetirilməsinə köməklik etməlidirlər.

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

**Alstom şirkəti ətraf mühitə qarşı məsuliyyətini tam şəkildə dərk edir.** Şirkət ətraf mühitin mühafizəsinə öz töhfəsini verir və bu məqsədə nail olmaq üçün təchiz etdiyi sistemlər, avadanlıqlar və xidmətlər formasında bütün zəruri vasitələrlə təchiz olunmuşdur. Şirkətin əsas fəaliyyəti atmosferə zərərli tullantıların atılmasının və istixana effektinin azaldılmasına imkan verən texnologiya və həllərin təmin edilməsinə və nadir təbii resursların istifadəsini məhdudlaşdırmağa yönlənir. Alstom öz əməkdaşlarına, sifarişçilərinə və bütün maraqlı tərəflərə məhsullarının ətraf mühitə təsiri barədə məlumat təqdim edir.

Şirkət zərərli maddələri aradan qaldırmaqla, təkrar emal oluna bilən materiallar seçərək və minimum enerji sərf edərək istehsal, quraşdırma və xidmət prosesləri hazırlayır.

Ətraf mühitə təsir məsələləri qərarvermədə vacib rol oynayır və bütün daxili qaydalar, müvafiq qanunlar və normativ-hüquqi aktlarla tənzimlənir.

**Alstom şirkətinin bütün əməkdaşları gündəlik fəaliyyətlərində şirkətin ətraf mühitin mühafizəsi üzrə öhdəliklərini yerinə yetirməyə görə məsuliyyət daşıyırlar.**

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALS POL 001 "DAVAMLILIQ VƏ KORPORATİV MƏSULİYYƏT SİYASƏTİ" VƏ ALS POL 003 "ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ" ADLI TƏLİMATLARA BAXIN.

— PRAKTİKİ NÜMUNƏ —

**S Ayrıca bir əməkdaş kimi böyük bir təşkilat olaraq ətraf mühitə göstərdiyimiz təsirləri azaltmağa köməklik edə bilərəm?**

Bəli, edə bilərsiniz. Gündəlik fəaliyyətdəki qərarvermə prosesində ekoloji aspektləri nəzərə almaq bütün müvafiq bölmələrin öhdəliyidir. Birlikdə vəziyyəti dəyişə bilərik. İşıqları söndürmək, yalnız zəruri olan materialları çap etmək, kağızları təkrar istifadə etmək və ezamiyyətə getməmək yaxud ezamiyyətləri azaltmaq kimi bəzi sadə işləri görə bilərik. Bütün bunlar ətraf mühitin vəziyyətinə müsbət təsir edə bilər.

# İCMALARLA MÜNASİBƏTLƏR



**Alstom fəaliyyət göstərdiyi ölkələrdə olan icmaların qarşısında məsuliyyət daşıyır.** Şirkət əməkdaşlarını yerli icmaların həyatında aktiv iştirak etməyə çağırır. Amma əməkdaşların yerli icmaların həyatındakı iştirakı onların boş vaxtlarında və öz adlarından olmalıdır ki, heç bir faktiki yaxud ehtimal edilən maraq toqquşması olmasın.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALS POL 001 "DAVAMLILIQ VƏ KORPORATİV MƏSULİYYƏT SİYASƏTİ" VƏ ALS POL 003 "ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ" ADLI TƏLİMATLARA BAXIN.

# SİYASİ PARTİYALARA İANƏLƏR VƏ SİYASİ FƏALİYYƏT

**Alstom daima şirkətin fəaliyyətinə təsir edə biləcək siyasi vəziyyəti və dəyişiklikləri izləyir,** amma şirkətin adından siyasi partiyalara ianələr verməyi qadağan edir. Siyasi ianələr siyasi partiyanın, təşkilatın, siyasətçinin yaxud dövlət qulluğuna namizədliyini irəli sürmüş namizədlərin xeyrinə edilmiş istənilən ödənişlərdir. Belə ödənişlər mallar, xidmətlər, hədiyyələr, kreditlər, siyasi mitinqin yaxud tədbirin, reklam kampaniyasının maliyyələşdirilməsi, şirkətin xidməti sahəsindən, kompüter texnikasından yaxud dəftərxana ləvazimatlarından istifadə kimi siyasi partiyanın yaxud təşkilatın siyasi xadiminə verilən dəyərli bir əşya ola bilər.

**Şirkət siyasi partiyaların, siyasətçilərin yaxud siyasi təşkilatların xeyrinə heç bir ianə vermir.** Alstom əməkdaşlarının fiziki şəxs kimi siyasi prosesdə iştirak etmək hüquqlarına hörmət edir, amma bütün bunları əməkdaşlar öz adlarından, asudə vaxtda, öz hesablarına etməlidirlər və həmin fəaliyyətlərin Alstom adından həyata keçirilmədiyi dəqiq müəyyən edilməlidir.

İstənilən yerli siyasi fəaliyyət tətbiq edilən qanunlara və normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilməlidir.

**Bu qaydalar kompleks xarakter daşıdığına və hər ölkədə fərqli olduğuna görə** şirkət əməkdaşları məsləhət üçün Korporativ qaydalar və işgüzar etika yaxud Hüquq şöbəsinə müraciət etməlidirlər.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN LGL WMS 011 "SİYASİ PARTİALARA İANƏLƏR" ADLI TƏLİMATINA BAXIN.

**S Mən başa düşürəm ki, Alstom şirkəti nə siyasi partiyalara ianələr verir, nə də siyasi fəaliyyətlə məşğul olur. Mən fiziki şəxs kimi bu işlərdə iştirak edə bilərəm?**

Bəli, fiziki şəxs kimi iştirak etmək hüququnuz var, amma bu cür fəaliyyəti asudə vaxtlarınızda Alstom şirkətinin resurs yaxud avadanlığından istifadə etmədən göstərə bilərsiniz. Bunların Alstom şirkətinin deyil, sizin şəxsi görüşləriniz və işiniz olduğunu dəqiq müəyyənləşdirməlisiniz.

— PRAKTİKİ NÜMUNƏ —

# XEYRİYYƏ MƏQSƏDLİ İANƏLƏR

**Alstom rezidenti olduğu və fəaliyyət göstərdiyi ölkələrin icmalarının xeyrinə xeyriyyə işləri ilə məşğul olur.** Xeyriyyə məqsədli ianələr məqsədəuyğun olmalı və faktiki yaxud ehtimal edilən maraq toqquşması yaratmamalı yaxud qanunsuz üstünlüklər yaratmağa yönləndirilməməlidir. Bütün xeyriyyə məqsədli ianələr əvvəlcədən yazılı şəkildə razılaşdırılmalı və Alstom siyasətinə uyğun olaraq sənədləşdirilməlidir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN LGL WMS 012 "XEYRİYYƏ MƏQSƏDLİ İANƏLƏR" ADLI TƏLİMATINA BAXIN YAXUD KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİ İLƏ MƏSLƏHƏTLƏŞİN.

# SPONSORLUQ

**Alstom özünün biznes strategiyasına və dəyərlərinə uyğun gələn fəaliyyətə sponsorluq edir.** Tətbiq edilən qanunlara və normativ-hüquqi aktlara uyğun olduqda sponsorluğa icazə verilir. Yeni kommersiya sövdələşmələrinin əldə edilməsi və ya mövcud biznesin saxlanılması məqsədilə edilən sponsorluq qadağan edilir. Alstom şirkətini hər hansı sponsorluq proqramına cəlb etmək haqqında qərar İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən əvvəlcədən təsdiqlənməli və Alstom siyasətinə uyğun olaraq sənədləşdirilməlidir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN LGL WMS 013 "SPONSORLUQ" ADLI TƏLİMATINA BAXIN YAXUD KORPORATİV QAYDALAR VƏ İŞGÜZAR ETİKA ŞÖBƏSİ İLƏ MƏSLƏHƏTLƏŞİN..

# HÖRMƏT VƏ İNKLÜZİVLİK

Alstom şirkəti beynəlxalq səviyyədə qorunan insan hüquqlarını dəstəkləyir və şirkət daxilində şəxsiyyətə ədalətli münasibəti və hörməti təşviq edir.

# İNSAN HÜQUQLARINA HÖRMƏT

**Alstom insan hüquqlarının qorunması və ədalətli əmək şərtləri haqqında qanunlara xüsusilə əməl edir.** Alstom şirkətinin siyasəti BMT-nin biznesin aparılması və insan hüquqları sahəsində olan aparıcı prinsiplərinə əməl etməyi, eləcə də fəaliyyət göstərdiyi bütün ölkələrdə dünyacada tanınmış insan hüquqlarına hörmət etməyi nəzərdə tutur. Alstom qanunsuz yaxud icbari əməyin bütün formalarına, xüsusilə də uşaq əməyinə qarşıdır.

Alstom şirkəti öz təchizatçılarına və subpodratçılarına qanunsuz yaxud icbari əməkdən istifadə etməyi qadağan edir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN SCG POL 001 "DAYANIQLI İŞÇİ HEYƏT SEÇİMİ SİYASƏTİ" ADLI TƏLİMATINA BAXIN.

PRAKTİKİ NÜMUNƏ

**S Bu yaxınlarda öyrəndim ki, təchizatçılarımızdan biri uşaq əməyindən istifadəyə görə diqqət mərkəzində olmuşdur. Kənar üçüncü tərəfin davranışı Alstom üçün nə qədər vacibdir, yoxsa bu hala sadəcə məhəl qoymamalıyam?**

Alstom əmək münasibətlərini tənzimləyən bütün qanunları icra etməyi öhdəliyə götürür və təchizatçılarımız və podratçılarımızın icbari iş metodlarından istifadəsi qəti qadağan edilir. Bu hal yalnız təqsirləndirmə olduqda belə həmin konkret təchizatçı ilə iş aparmaq təcrübəsi barədə əlavə məlumat toplamaq məqsədilə bunu Hüquq şöbəsi / Korporativ qaydalar və işgüzar etika şöbəsinə bildirməlisiniz.

# ƏMƏKDAŞLARLA MÜNASİBƏTLƏR

**Alstom öz əməkdaşlarının həmkarlar ittifaqında və işçi təşkilatlarında iştirak etmək, həmçinin kollektiv danışıqlar təşkil etmək və onlarda iştirak etmək hüququna hörmətlə yanaşır.** Alstom sosial partnyorların vəzifə və öhdəliklərinə hörmət edir və onlarla əlaqə saxlamağı və ümumi maraq doğuran məsələlərin həlli üçün açıq danışıqlar aparmağı, həmçinin öz missiyalarını həyata keçirmək üçün vasitələr təmin etməyi və onlara öz öhdəliklərini yerinə yetirməyə mane olmamağı öhdəliyə götürür.

# KARYERA İDARƏETMƏSİ



**Alstom hər bir əməkdaşın inkişaf etməsinə aktiv şəkildə köməklik edir.** Hər il keçirilən İşin effektivliyini İdarəetmə Dövrəsinə əməkdaşlar və rəhbərlər arasında müntəzəm əyani görüşlər daxildir, onlar təkcə məqsədlərin müəyyənləşdirilməsi və nailiyyətlərin qiymətləndirilməsi üçün deyil, həm də kadrların inkişafı üzrə tələbləri və karyera məqsədlərini bildirmək üçün görüşürlər. Alstom şirkət daxilində bütün səviyyələrdə əməkdaşların irəliləməsini dəstəkləyir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN İNSAN RESURSLARI ŞÖBƏSİNƏ MÜRACİƏT EDİN.

# BƏRABƏR İMKANLAR, İNKLÜZİVLİK VƏ AYRI-SEÇKİLİYİN OLMAMASI



**Alstom bütün ixtisaslı işçilərə və iş üçün müraciət edənlərə bərabər iş imkanları təklif edir ki, hər kəsin əməkdaşlıq etmək, uğur qazanmaq imkanı olsun.** Cəmiyyətin müxtəlif təbəqələrindən olan şəxslərin işə qəbulu, təlimi və şəxsi inkişafı şirkət üçün vacibdir. Alstom fəaliyyət göstərdiyi icmaların və bazarların spesifikasına uyğunlaşdırılmış komandalar yaradaraq bu fərqləri başa düşür və qiymətləndirir.

**Alstom şirkətinin Mədəni fərqliliklər və İnklüzivlik Nizamnaməsi müxtəlif işçi qüvvəsinin və bütün Alstom əməkdaşları üçün inklüziv iş yerinin qiymətləndirilməsi, təşviqi, dəstəklənməsi və yayılması üzrə ümumi əsas təmin edir.** İnanırıq ki, müxtəlif və inklüziv işçi qüvvəsi etibarlı və uğurlu fəaliyyət üçün aparıcı qüvvədir. İşə qəbul, effektivliyin qiymətləndirilməsi, vəzifədə irəliləmə, təlim, təzminat və inkişaf daxil olmaqla, işəgötürmə barədə qərarlar yalnız obyektiv amillər, həmçinin fəaliyyət göstəriciləri və digər işgüzar mülahizələr əsasında qəbul olunacaq.

Alstom yaş, irq, cins, etnik mənsubiyyət, din, sağlamlıq, əlillik, ailə vəziyyəti, cinsi orientasiya, siyasi yaxud fəlsəfi inanclar, həmkarlar ittifaqında üzvlük və ya tətbiq edilən qanunvericilikdə verilən digər xüsusiyyətlərə əsaslanan istənilən ayrı-seçkiliyi qadağan edir.

**Alstom təqibin heç bir formasına qarşı dözümlülük göstərmir.** Bütün əməkdaşlar yoldaşları ilə peşəkar və şəxsi münasibətlərdə sağlam düşüncə nümayiş etməlidir. Təqib yaxud ayrı-seçkiliyin hər hansı növünün şahidi yaxud qurbanı olmuşsunuzsa, bunu birbaşa rəhbərinizə yaxud İnsan Resursları şöbəsinə bildirin. Bu cür vəziyyət barədə məlumat verən əməkdaşlara qarşı heç bir cəza tətbiq edilə bilməz.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN HRM STD 102 "ALSTOM ŞİRKƏTİNİN MƏDƏNİ FƏRQLİLİKLƏR VƏ İNKLÜZİVLİK NİZAMNAMƏSİ"NƏ BAXIN YAXUD İNSAN RESURSLARI ŞÖBƏSİ İLƏ MƏSLƏHƏTLƏŞİN.

— PRAKTİKİ NÜMUNƏ —

**S** **Hazırda işlədiyim şöbə yeni işçilər toplayır. Eşitmişəm ki, bəzi namizədlər elanda verilən iş tələbləri ilə bağlı olmayan səbəblərdən xaric edilir. Bu məsələni qaldırıb namizəd seçimi zamanı qərarın nəyə əsaslandığını soruşa bilərəm?**

Bəli, bu məsələni qaldırmalısınız. Kadrların işə götürülməsi üzrə rəhbər şəxslə danışmalı və bunu vurğulamalı yaxud birbaşa olaraq İnsan Resursları ilə müzakirə etməlisiniz. Yadda saxlayın ki, müəyyən ərizəçilərin qəbul edilməməsinin təhlükəsizlik, maraq toqquşması yaxud hüquqi əsasları ola bilər. Ədalətli işəgötürmə təcrübələrinin və inklüziv iş mühitinin təmin edilməsi şirkətin əsas məqsədidir və hər birimiz bu işdə köməklik göstərə bilərik.

**S** **Şöbəmizdəki Rəhbərlərdən biri tez əsəbiləşir və işçilərə kobud davranır. Bu barədə məlumat verib-verməməyə əmin deyiləm. Şirkət bu barədə bir tədbir görər yoxsa buna etinasız yanaşar?**

Bəli, bu məsələni İnsan Resursları şöbəsinə bildirməlisiniz. Bütün əməkdaşlar peşəkarcasına hərəkət etməli və bir-birinə ləyaqətlə və hörmətlə yanaşmalıdırlar.

# ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI



**Alstom şirkətinin əsas prioriteti öz işçilərinin sağlamlığını qorumaq və təhlükəsizliyini təmin etməkdir.** Şirkət bütün işçilər üçün sağlam və təhlükəsiz iş mühiti yaratmağı öhdəsinə götürür və eyni yüksək standartlar təmin edir. Bütün obyektlərdə sağlamlığın mühafizəsi və təhlükəsizliklə bağlı riskləri aradan qaldırmaq və qəzaların sayını sıfıra endirmək üçün tədbirlərin görülməsinə şirkət xüsusi diqqət ayırır. Bu tədbirlər bütün işçilərə intensiv təlimlərin keçilməsi və bu standartlardan yayınma üzrə sıfır dözümlülük siyasətinin qəbul edilməsi ilə müşayiət olunur.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN MNS POL 003 "SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİT" VƏ ALS POL 003 "TƏHLÜKƏSİZLİK DİREKTİVLƏRİ VƏ SIFIR DÖZÜMLÜLÜK SİYASƏTİ" ADLI TƏLİMATLARINA BAXIN YAXUD SƏTƏM ŞÖBƏSİ İLƏ MÜZAKİRƏ APARIN.

PRAKTİKİ NÜMUNƏ

**S** Bu yaxınlarda obyektdəki işçilərdən biri iş qəzası keçirmişdir. Çox ciddi bir qəza deyildi, bədbəxt hadisələrin sıfıra endirilməsi siyasətinə mənfi təsir etməmək məqsədilə iş yoldaşlarımızdan bəziləri ona hadisə barədə məlumat verməməyi məsləhət gördülər. O, düzgün hərəkət etmişdir?

Xeyr, işlə əlaqədar bütün qəzalar barədə dərhal müdiriyyətə xəbər vermək lazımdır. İlk növbədə, bu işçinin tibbi yardım alması vacibdir, ikincisi isə bütün təhlükəsizlik tədbirlərinin görülməsi üçün rəhbərlik xəbərdar olmalıdır.

# MƏLUMATLARIN MƏXFİLİYİ

**Şəxsi məlumatların müvafiq şəkildə və şirkətin bütün təlimatlarına, məlumatların qorunması üzrə qanunlar və normativ-hüquqi aktlara uyğun olaraq işlənməsini təmin etmək üçün Alstom bütün zəruri tədbirləri görür.** Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, Alstom şəxsi məlumatları üçüncü tərəflərə açıqlamır.

İş icra edərkən əməkdaşlar digərlərinin şəxsi məlumatlarına rast gələ bilərlər. Yalnız vəzifə öhdəlikləri ilə əlaqədar Alstom-un adından bu cür məlumatlarla işləməyə qanuni səbəbi olan əməkdaşlar bu məlumatlarla işləyə bilər. Hər bir əməkdaş şəxsi məlumatları sui-istifadə, qanunsuz istifadə yaxud açıqlamağa qarşı qorumaq öhdəliyi daşıyır.

PRAKTİKİ NÜMUNƏ

**S Təchizatçı ilə qrup zəngi (Teams) zamanı iş yoldaşım məlumatları bütün təfsilatları ilə saxlamaq və qeydləri yazılı şəkildə aparmamaq üçün zəngi telefonuna yazıb. Telefon danışığının yazıldığını heç kimə məlumat verməmişik. Bu düzgündür?**

Xeyr. Zənglərin yaxud iclasların yazılmasına icazə verilmir və məlumatların məxfiliyi qaydalarını poza bilər.

**S Bacım öz şəxsi işini qurur və işgüzar adresat siyahısı üçün iş yoldaşlarımın əlaqə məlumatlarını məndən istəyib. Fikrimcə bacımın satdıqları onların xoşuna gələcək. İş yoldaşlarımın adlarını və poçt ünvanlarını ona verə bilərəm?**

Xeyr. Bu məlumatları təqdim edə bilməzsiniz. Bacınız müştəri bazası yaratmağın başqa yolunu tapmalıdır. İşçilərin adları və elektron poçt ünvanları şəxsi məlumatlardır və Alstom şirkətinin hüquqi işgüzar məqsədləri üçün istifadə edilə bilər.

# ƏMƏKDAŞLARIN TƏHLÜKƏSİZLİYİ



**Alstom öz işçilərini təhlükəsiz və etibarlı iş mühiti ilə təmin etmək üçün əlindən gələni edir.** Fəaliyyət göstərdiyimiz bütün ölkələrdə iş yerinin təhlükəsizliyi ilə bağlı tətbiq edilən qanunlara və hüquqi-normativ aktlara əməl edirik. İşçiləri mümkün risklər barədə məlumatlandırmaq üçün Alstom müntəzəm olaraq təlimatlar və iş yerində qəza zamanı yerinə yetiriləcək prosedurlar dərc edir. Bütün əməkdaşlar təlimatlar barədə məlumatlı olmalı və təhlükəsizlik texnikasının ehtimal edilən pozulma hallarını rəhbərliyə bildirməlidirlər.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-UN SEC PRO 001 "TƏHLÜKƏSİZLİYİN TƏŞKİLİ" və SEC WMS 003 "VƏZİYYƏTİ QEYRİ-STABİL OLAN ÖLKƏYƏ SƏYAHƏT ETMƏK YAXUD ORADA QALMAQ" ADLI TƏLİMATLARINA BAXIN.

# ŞİRKƏT ƏMLAKININ MÜHAFİZƏSİ

Alstom şirkətinin bütün əməkdaşları şirkətin əmlakını və aktivlərini qorumağa görə məsuliyyət daşıyır. Şirkətin əmlakı təkcə onun pul vəsaitləri, mal-material dəyəri, patentləşdirilmiş ixtiraları, əqli mülkiyyəti, kompüter və telefon şəbəkələri kimi maddi obyektlər deyil, həm də əməkdaşların yaratdığı və ya Alstom-da iş prosesi zamanı istifadə etdikləri ideyalar, konsepsiyalar yaxud nou-hau kimi qeyri-maddi obyektlərdir. Həmçinin sifarişçilərin və təchizatçıların siyahısı və bazar haqqında digər məlumatlar da şirkətin əmlakıdır.

Alstom-un pul vəsaitləri və əmlakı qanunsuz yaxud şirkətin fəaliyyəti ilə əlaqəsi olmayan məqsədlərlə istifadə olunmamalıdır. Şirkətin əmlakı şəxsi işlər yaxud şəxsi mənfəət üçün, eləcə də Şirkətin əməkdaşı olmayan yaxud Şirkətin icazəsinə malik olmayan digər şəxslər tərəfindən istifadə edilməməlidir. Şirkətin əmlakını mənimsəmə yaxud oğurlama qanunvericiliyin pozulmasıdır və intizam tədbiri və mülki yaxud cinayət məsuliyyətinə cəlb edilmə ilə nəticələnə bilər.

# ŞİRKƏTİN İT RESURSLARINDAN İSTİFADƏ

**Alstom-un İT resurslarına daxil olan bütün** hesablama texnikası, məlumat şəbəkələri, printerlər, surətçıxarma avadanlıqları, elektron poçt, səsli poçt, internet, stasionar telefonlar, mobil telefonlar və digər əlaqə vasitələri şirkətin əmlakıdır və peşəkar məqsədlərlə istifadə olunmalıdır. Alstom əməkdaşların şəxsi cihazlarında olan, peşəkar fəaliyyətlə bağlı məlumatların qanuni sahibi olaraq qalır. Alstom-dan işdən çıxarıldıqda bütün peşəkar məlumatlar cihazdan silinməlidir.

**Təsdiq edilir ki, əməkdaşların şəxsi və işgüzar həyatı bir-biri ilə sıx əlaqədardır və bu ikisi arasında düzgün tarazlıq** həm şirkətin, həm də onun əməkdaşlarının marağındadır. Buna görə də əlaqə vasitələrindən şəxsi məqsədlər üçün istifadəyə  məhdud şəkildə icazə verilir, amma belə istifadə vəziyyətdən asılı olaraq məqsədəuyğun və zəruri olmalı və öhdəliklərin icrasına mane olmamalıdır.



# MƏXFİ MƏLUMATLARIN QORUNMASI

**Normal iş prosesində şirkətin kommersiya fəaliyyətinə aid məxfi yaxud özəl məlumatlara rast gələ bilərsiniz.** Həmin məlumatlara sifarişçilər, təchizatçılar və digər işgüzar partnyorlar kimi xarici maraqlı tərəflərə aid məlumatlar daxil ola bilər. Məxfi məlumatlara nəticələr, proqnozlar, maliyyə məlumatları, insan resursları və şəxsi məlumatlar, aktivlərin əldə edilməsi və reallaşdırılması, yeni məhsul və sifarişlər barədə məlumatlar aiddir. Korporativ kommersiya məlumatlarına biznes strategiyalar, məhsulun təkmilləşdirilməsi, texniki məlumatlar, sistemlər, kommersiya sirrləri və Alstom tərəfindən hazırlanmış yaxud əldə edilmiş nou-hau daxildir. Bu fəslə həmçinin kommersiya sirrinin saxlanılması və məlumatların açıqlanmaması barədə razılaşmaların əhatə etdiyi məsələlər daxildir.

Belə məlumata yalnız öhdəliklərinə həmin məlumatlardan istifadə və onları ötürmək daxil olan əməkdaşlar yiyələnməlidir. Bütün məxfi və şəxsi məlumatlar qorunmalı və yalnız icazə verilmiş məqsədlər üçün istifadə olunmalıdır. Bu cür məlumatları açıqlamama üzrə öhdəlik şirkətdə işə xitam verildikdən sonra da qüvvədə qalır.

Şirkət əməkdaşları məxfi məlumatlar yaxud ödənişlər üzrə şübhəli sorğular ala bilərlər. Bu cür sorğular dələduzluq yaxud fırıldaqçılıq məqsədilə qanunsuz məlumat əldə etmək cəhdi olduğuna görə çox ehtiyatlı olmaq lazımdır. Sizdə olan məxfi məlumatı istifadə edib-etməyəcəyinizə əmin olmadıqda məsləhət üçün birbaşa rəhbərinizə müraciət edin.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN "MƏLUMATLARIN QORUNMASININ QIZIL QAYDALARI" ADLI TƏLİMATA BAXIN YAXUD KORPORATİV QAYDALAR VƏ HÜQUQ ŞÖBƏSİ İLƏ MƏSLƏHƏTLƏŞİN.

PRAKTİKİ NÜMUNƏ

**S** İşimlə əlaqədar tez-tez səyahət edirəm və bəzən vacib elektron məktubları hava limanı yaxud vağzal kimi ictimai yerlərdə açıram. Başqalarının nə işlə məşğul olduğumu gördüyü ictimai yerlərdə işləyə bilərəm?

Məxfi məlumatları saxlamaq üzrə tədbir gördüyünüz halda ictimai yerlərdə işləməyə icazə verilir. Alstom-un məxfi və özəl məlumatları ilə əlaqədar əlavə ehtiyat tədbirləri görməlisiniz.



# MƏXFİ MƏLUMATLARDAN İSTİFADƏ ETMƏKLƏ APARILAN QANUNSUZ ƏMƏLİYYATLAR

**Alstom publik bir şirkət olduğuna görə məlumatların istifadəsini və açıqlanmasını tənzimləyən bir neçə** yurisdiksiyanın qiymətli kağızlar haqqında qanunlarına və normativ-hüquqi aktlarına tabedir.

Adi iş fəaliyyəti müddətində əməkdaşlar birbaşa yaxud dolayı yolla Alstom-a aid olan, səhm dəyərlərinə əhəmiyyətli təsir göstərə bilən məxfi məlumatlara rast gələ bilər, belə məlumatlar məxfi xidməti məlumat hesab olunur və şirkət tərəfindən ictimaiyyətə açıqlanana kimi gizli saxlanılmalıdır.

**Məxfi xidməti məlumatı birbaşa yaxud dolayı yolla şəxsi məqsədlər üçün istifadə etmək** yaxud istifadə etməyə cəhd etmək və ya rəsmi şəkildə dərc olunana qədər üçüncü tərəflərə açıqlamaq Alstom siyasəti ilə qadağan edilir və qiymətli kağızlar haqqında qanunun pozulması sayılır.

**Məxfi xidməti məlumatlarla bağlı qaydalar** sifarişçilər, təchizatçılar və ticarət partnyorları daxil olmaqla, digər şirkətlər haqqında öyrəndiyiniz məlumatlara da aid olur.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-un LGL WMS 008 "MƏXFİ MƏLUMATLARDAN İSTİFADƏ OLUNMAQLA APARILAN QANUNSUZ ƏMƏLİYYATLAR" ADLI TƏLİMATINA BAXIN YAXUD HÜQUQ ŞÖBƏSİ İLƏ MƏSLƏHƏTLƏŞİN.

**PRAKTİKİ NÜMUNƏ**

**S** **Eşitmişəm ki, Alstom digər bir şirkəti almaq üzrədir. Sövdələşmə rəsmi şəkildə açıqlanana kimi dəyər artacağına görə Alstom səhmlərini almaq istəyərdim. Belə səhmlər əldə edə bilərəm?**

Xeyr. Alstom şirkətinin əməkdaşı kimi "insayder" hesab olunursunuz və buna görə də rəsmi açıqlamaya qədər nə Alstom-da, nə də hədəf şirkətdə (həmin şirkət birjada qeydiyyatdadırsa) səhmlər ala yaxud sata bilməzsiniz.

# ƏQLİ MÜLKİYYƏT



Alstom şirkətinin əqli mülkiyyəti şirkətin qiymətli aktividir, bütün əməkdaşlar onun qorunmasına görə məsuliyyət daşıyır. Alstom-un əqli mülkiyyət hüquqlarına patentlər, ixtira hüququ, çertyojlar, ticarət nişanları, ticarət və firma adları, qeyri-maddi aktivlər, nou-hau, kommersiya sirləri və loqolar daxildir. Əməkdaşlar əqli mülkiyyətin qorunması üzrə tədbirlər görməli və bu cür məxfi məlumatlarla bağlı açıq müzakirələrə imkan verməməlidirlər. Alstom zəmanət verir ki, digər şəxslərin və əməkdaşlıq etdiyi şirkətlərin qanuni əqli mülkiyyət hüquqları qorunur və Alstom şirkətinin əməkdaşları tərəfindən pozulmur.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-un IPD WMS 008 "ALSTOM-UN ƏQLİ MÜLKİYYƏTİNİN QORUNMASI" ADLI TƏLİMATINA BAXIN YAXUD HÜQUQ ŞÖBƏSİ İLƏ MƏSLƏHƏTLƏŞİN.

# SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏ

**Sosial şəbəkələr məlumat mübadiləsi və sahə şəbəkələrində iştirak etmək üçün mühüm vasitədir.** Alstom şirkətinin əməkdaşları daxili yaxud xarici sosial şəbəkələrdə şirkət məlumatlarını paylaşarkən ehtiyatlı olmalıdırlar. Məxfi, şirkət mülkiyyəti olan, təhqir kimi qəbul edilə biləcək yaxud insanların ləyaqətini alçaldan məlumatlar paylaşmaq olmaz. Həmçinin ayrı-ayrı yaxud bir qrup şəxslərin şəkillərini paylaşarkən məlumat məxfiliyi üzrə bütün qaydalara və normativ-hüquqi aktlara əməl etmək lazımdır.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN ALSTOM-un COM WMS 013 "SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏ" ADLI TƏLİMATINA BAXIN.

PRAKTİKİ NÜMUNƏ

**S** İnsan resursları şöbəsində işləyirəm və LinkedIn-dən bir işəgötürmə agentliyi mənimlə əlaqə saxladı və yeni işçilərin cəlb edilməsini tələb edən layihə barədə elan gördüyünü bildirdi. Həmin işəgötürmə agentliyi ilə danışıb onunla layihə və gələcək kadr tələbatı barədə məlumatları paylaşa bilərəm?

Bu halda ehtiyatlı olmalısınız. Həmin sorğu məsum görünsə də Alstom şirkətinin mülkiyyəti olan məxfi məlumatları ötürmək hüququnuz yoxdur. Alstom-un layihələri haqqında hər hansı məlumatı təqdim etməzdən əvvəl İctimaiyyətlə əlaqələr şöbəsi ilə məsləhətləşin.

# ANALİTİK VƏ/VƏ YA İNVESTORLARA MƏLUMATLARIN TƏQDİM EDİLMƏSİ

Alstom bütün maliyyə və işgüzar məlumatlara çox diqqətlə yanaşır və həmin məlumatları ictimaiyyətə ehtiyatlı şəkildə açıqlayır. Buna görə də məlumatların analitiklərə və investorlara təqdim edilməsinə İnvestorlarla əlaqə şöbəsi cavabdehdir. Alstom haqqında məlumatların təqdim edilməsi üzrə analitiklərin və investorların bütün sorğuları İnvestorlarla əlaqə şöbəsinə yönləndirilməlidir.

İnvestorlarla əlaqələr şöbəsinin əvvəlcədən razılığı olmadan Alstom şirkətinin əməkdaşları investorların iştirak etdiyi tədbirlərdə və görüşlərdə iştirak edə bilməzlər.

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ İLƏ ƏLAQƏLƏR

**İstənilən məlumatın kütləvi informasiya vasitələrinə ötürülməsi Alstom-un imic və nüfuzuna təsir edə bilər,** buna görə də bütün ötürülən məlumatlar diqqətlə yoxlanılmalı və nəzarətdən keçməlidir. İctimaiyyətlə əlaqələr şöbəsi sifarişçilər, aparıcı mütəxəssislər, anatiliklər, investorlar, dövlət və digər xarici maraqlı tərəflərlə məlumat mübadiləsini idarə edir.

**KİV üçün bütün bəyanatlar yaxud sorğulara cavablar İctimaiyyətlə əlaqələr şöbəsinin yoxlamasından keçməli** yaxud həmin şöbə ilə razılaşdırılmalıdır. Alstom-u kənar təşkilatlarda təmsil edirsinizsə, hər hansı məlumatı təqdim etməzdən əvvəl İctimaiyyətlə əlaqələr şöbəsinin icazəsi alınmalıdır.

**ALSTOM – ETİK DAVRANIŞ KODEKSİ 2020. © ALSTOM SA, 2020. Bütün hüquqlar qorunur. ALSTOM, ALSTOM loqosu, ALSTOM şirkətinin nəqliyyat domeninin** bütün alternativ variantları və bütün ticarət nişanları ALSTOM SA yaxud ALSTOM Transport Technologies şirkətinin ticarət nişanlarıdır. Qeyd edilmiş qeydiyyatdan yaxud keçməmiş digər adlar onların müvafiq sahiblərinə aiddir. Hazırki sənəddə olan texniki və digər məlumatlar yalnız məlumat xarakterlidir. ALSTOM istənilən vaxt və xəbərdarlıqsız bu məlumatları təkrar nəzərdən keçirmək yaxud dəyişmək hüququna malikdir. Burada dərc olunan məqalələr və şəkillər əvvəlcədən yazılı icazə olmadan çıxaldıla bilməz. **Dizayn:** côtécorp. **Fotoqraflar**: © Alstom/Vincent Catala, Samuel Dhote, Arnaud Février, R. Frampe, S. Lee, Richard Nourry A. Pavone, Thibaut Priou, David Richard, Earl Richardson, Christel Sasso, Ramon Vilalta, J. Schweitzer.

**Alstom**
48, rue Albert-Dhalenne
93482 Saint-Ouen Cedex
Tel.: + 33 1 57 06 90 00
Faks: + 33 1 57 06 96 66

www.alstom.com

ALSTOM
• mobility by nature •